# 2017-Cİ İL AZƏRBAYCANDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN EDİLMİŞDİR

(Əvvəli ötən sayımızda)

**Türkiyənin dünyəvi dövlət prinsipləri ilə islami dəyərləri uzlaşdırma təcrübəsi ərəb dövlətləri üçün də cəlbedici oldu. Bu da, regionda mövqeyi güclənən Türkiyənin güclü regional dövlət olaraq qəbul edilməsinə və daha aktiv siyasət aparmasına şərait yaratdı. Türkiyə liderlərinin qonşu ölkədə diktator tərəfindən ”günahsız insanların öldürülməsinin artıq həmin ölkənin yalnız daxili işi olmayacağını” bəyan etməsi, bu dövlətin daha qətiyyətli xarici siyasət yürütməyə iddialı olduğunu göstərdi. Rəsmi Ankaranın ”ərəb inqilabları” zamanı rejimləri deyil, xalqları dəstəkləməsi, onu regionun lider dövlətinə çevirdi. Türkiyə öz statusunu ”problemlərdən yayınan” ölkədən, ”problemləri həll edən” ölkəyə qədər yüksəltdi. Bu da ona, region dövlətləri ilə daha əlverişli ticarət əlaqələri qurub mədəni-iqtisadi əməkdaşlığı genişləndirmək imkanı verdi. Xarici siyasətdə baş verən bütün bu pozitiv dəyişikliklər, Azərbaycanın da strateji maraqlarına cavab verir.**

Başlanğıcda, rəsmi Moskvanın Qəddafi və Əsəd kimi diktatorları qorumağa etdiyi uğursuz cəhdlər qonşu dövlətin imicinə zərər vurub, Rusiyanın özünün də demokratikləşmə ilə bağlı ciddi problemlərinin olduğunu yada salsa da, ”ərəb inqilabları” bu ölkədə də demokratikləşmə tərəfdarlarının mövqeyini gücləndirmiş oldu. Rusiya elitası demokratikləşmənin alternativinin olmadığını qəbul edib Qəddafi, Əsəd və digər bu qəbildən olan orta əsr təfəkkürlü liderlərlə uzağa getməyin qeyri-mümkünlüyünü anladı. Rusiyanın gələcəyinin Avropa ilə əməkdaşlıqdan, demokratikləşmədən asılı olduğunu bəyan edən siyasət və elm adamlarının sayı xeyli artmış oldu.

Bölgədə baş verənlər İrandan da təsirsiz ötüşmədi, yenə də əvvəllərdə olduğu kimi İrana dəyişiklik küləkləri Cənubi Azərbaycandan gəldi. Təbriz, Urmiya, Ərdəbil və digər Cənubi Azərbaycan şəhərlərində soydaşlarımız öz haqları uğrunda dinc mübarizəyə qalxdılar. Dünya da bu mübarizəni, əvvəllərdə olduğu kimi görməzliyə vurmadı. Sayı 10 milyonlarla hesablanan cənublu soydaşlarımızın öz haqlarını müdafiə edib demokratiya əldə etməsi, artıq zaman məsələsidir.

Azərbaycanın ərəb dünyasında baş verən hadisələrə neftlə zəngin digər dövlətləri də qarşıdırıb cəmiyyətdə rezonans yaratmağa hesablanmış informasiya müdaxilələrinə (”WikiLeaks”in açıqlamaları və s.) münasibətdə təmkin nümayiş etdirməsi və dövlət başçısı səviyyəsində balanslaşdırılmış və ardıcıl siyasətə üstünlük verilməsi, sərvətimizi talan edib ərazimizi bölüşdürmək həvəsində olanların arzularını gözlərində qoydu. 2015-2016-cı illərdə Prezident İlham Əliyevin iqtisadi hədəflərin qarşısında olan əngəllərin (xüsusilə gömrük və sahibkarlıqla bağlı) aradan qaldırması, problemli sahələrdə əsaslı struktur dəyişikliklərinin aparılması, idarəetmə sisteminin yenilənməsi və şəffaf idarəçilik prinsiplərinin daha geniş formada tətbiqi ilə bağlı imzaladığı fərman və sərəncamlar, ölkənin gələcək daxili və xarici siyasətini, eləcə də demokratik inkişaf yolunu müəyyənləşdirdi. 2016-cı il mayın 27-də Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ”Buta” sarayında keçirilən rəsmi qəbulda Azərbaycanda insan hüquqlarının pozulmasından, de-mokratiyanın, sərbəst toplaşma azadlığının olmamasından, avtoritar rejimin hökm sürməsindən danışıb uydurma ittihamlar səsləndirənlərin diqqətini demokratiyanın beşiyi sayılan ölkələrdə nümayişçilərin vəhşicəsinə döyülüb təhqir edilməsinə yönəldən prezident ikili siyasət yürüdənlərin dərdinin demokratiya olmadığının fərqində olduğunu dünyaya çatdırdı. Qərb dövlətləri səfirlərinin də iştirak etdiyi tədbirdə dövlətimizin, xaricdən diqtə edilən kimi milli maraqlarımıza zidd idarə olunmasına cəhd edənlərin, bu alınmayanda Azərbaycanın siyasi rəhbərliyini və şəxsən onun özünü hədəfə alan kampaniyaya start verdiklərini deməklə, Prezident İlham Əliyev diqqəti, onunla təzyiq dili ilə danışmaqla nəyəsə nail olmağın qeyri-mümkünlüyünə yönəltmiş oldu.

Bu gün rəsmi Bakının Qərblə münasibətlərində qarşılıqlı ittihamlar dövrü arxada qalıb. ABŞ və Qərb dövlətlərinin yüksək rütbəli məmurları ilə keçirilən görüşlər demokratik institutlara ən-gəllərlə bağlı tənqidlərin nəzərə alındığını və demokratik islahatların dərinləşməsi istiqamətində səylərin davam etdirildiyini göstərir. Yüklərin Çindən Avropaya çatdırılma müddətini 2 dəfə azaldan Bakı-Tbilisi-Qars dəmir yolunun və Azərbaycanı mühüm nəqliyyat qovşağına çevirən Şimal-Cənub nəqliyyat dəhlizinin inşası regional və beynəlxalq əməkdaşlığın inkişafı işinə xidmət edəcək. Layihə çərçivəsində Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, ”Şahdəniz-2” qaz-kondensat yatağının, Trans-Anadolu (TANAP) və Trans-Adriatik Boru Kəmərlərinin (TAP) inşası və eləcə də, ”Cənub Qaz Dəhlizi” layihəsi üzrə Azərbaycan qazının Avropa bazarlarına çatdırılması Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfə verəcək. Avropa İttifaqına üzv ölkələrin üçdə biri ilə imzalanmış strateji tərəfdaşlıq haqqında sənədlər Avropa Birliyi ilə münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini; Azərbaycanın xarici ticarətinin 47.5 faizinin Avropa İttifaqı ölkələrinin payına düşməsi, prezidentin çıxışında barəsində danışılan inqilabi islahatların qapıda olduğunu göstərir. Avropa Birliyi ilə münasibətlərdə müsbət nəticənin alınması üçün, bu islahatların ardıcıl və kompleks şəkildə həyata keçirilməsi tələb olunur.



Azərbaycanda, əsrlər boyu müxtəlif etnik qrup və dini icma nümayəndələrinin sülh, qarşılıqlı anlaşma şəraitində yaşaması və tolerantlıq ruhunun hökm sürməsi də ölkələrarası münasibətlərə öz müsbət təsirini göstərmişdir. Azsaylı və ya çoxsaylı olmasından asılı olmayaraq istənilən xalqın hər bir nümayəndəsinin dünya mədəniyyətinin mədəni modelinin formalaşmasında birbaşa iştirakını təmin edən multikulturalizm ümumbəşəri dəyərləri özündə ehtiva edən siyasi məfkurə, düşüncə tərzi kimi də dərin mahiyyət kəsb edir: hər xalqa milli kimliyini təsdiqləyən tarixini, yaratdığı mədəniyyət nümunələrini, adət-ənənələrini, bir sözlə milli özəlliyini qoruyub saxlamaq, zənginləşdirib inkişaf etdirmək imkanı yaradır. Mədəniyyətlərarası qarşılıqlı əlaqələrin, mədəni və dini tolerantlılığın qarantı olan multikulturalizm dövlətlərarası mədəni-iqtisadi əlaqələrin geniş-lənməsinə zəmin yaradır. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun (2016) Bakıda keçirilməsi və prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin Azərbaycanda ”multikul-turalizm ili” elan edilməsi ölkəmizin sivilizasiyalararası, dinlər və mədəniyyətlərarası dialoqların baş tutduğu mötəbər məkana çevrilməsi istiqamətində ilk addım oldu. Roma Katolik Kilsəsinin rəhbəri Fransiskin ölkəmizə rəsmi səfəri zamanı səsləndirdiyi fikirlər, dünya katoliklərinin ölkəmizdəki multikulturalizm mühitinə münasibətinin ifadəsi idi. İlk Avropa Oyunlarına (2015) və Formula-1 Qran-Pri yarışlarına (2016) ev sahibliyi etməyimiz idman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verməklə yanaşı, həm də ölkəyə gələn turistlərin sayı-nı artırmış oldu. Bütün bunlar, eləcə də, ”Asan Viza” xidmətinin yaradılması və ”Tax free” sisteminin tətbiqi turizm sektorunun inkişafına müsbət təsir göstərir. Ölkəmizlə AB arasında viza rejiminin sadələşdirilməsi ilə bağlı imzalanmış saziş Azərbaycana, növbəti pillədə viza prosedurunun tamamilə aradan qaldırılması məsələsini müzakirə etmək imkanı yaradır.

Azərbaycanla əməkdaşlığın dərinləşməsində və islahatların gerçəkləşməsində Avropa Birliyinin də maraqlı olduğunu nəzərə alsaq, viza rejiminin aradan qaldırılması üçün elə bir ciddi maneə yoxdur. Əgər bu danışıqlar başlasa və razılaşma əldə olunsa, bu Azərbaycanla Avropa arasında əməkdaşlığı genişləndirib mədəni, iqtisadi münasibətlərin inkişafına yol açar. Hər il turist, iş adamı kimi Avropaya səfərə çıxan 100 minlərlə azərbaycanlının təfəkküründə demokratik dəyərlərin möhkəmlənməsi, bizi bu dəyərlərə qovuşduran prosesin sürətlənməsinə təkan verər. Bütün bunlar, tək demokratiyanın inkişafı, həmvətənlərimizin dünyagörüşlərinin genişlənməsi baxımından deyil, həm də dövlət quruculuğu baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın Avropa Oyunları ilə yanaşı, bu il Bakıda keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəyliyi Oyunlarına da ev sahibliyi etməsi, ölkəmizin müasirliklə yanaşı, islami dəyərlərə də sadiqliyinin göstəricisidir. Bu yarış prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı çıxışında dediyi kimi tək idman tədbiri deyil, həm də, Azərbaycanın bu gün islama tapınanlar haqqında geridə qalmış sivilizasiya kimi rəy formalaşdırıb islamofobiyaya rəvac verənlərə, İslamı dünyaya təhlükə kimi qələmə verib terrorizmlə eyniləşdirənlərə cavabıdır. Avropa İttifaqına üzv olan bəzi ölkələrin rəhbərləri ”Stop İslam” deyib müsəlmanları yox, miqrantları qəbul etməyə hazır olduqlarını bildirəndə, xalqları dini mənsubiyyətinə görə bölməyin faşizmin təzahürü olduğunu, faşizmin isə İslam aləmində yox, Avropada yarandığını unutmasınlar. Bu mənada, Bakıda İslam Həmrəyliyi Oyunlarının keçirilməsi müxtəlif təriqətlərə parçalanmış İslam aləminin birləşib onları ayıran məsələlərlə bağlı ortaq məxrəcə gəlməsi, gücümüzün, imkanlarımızın, dini dəyərlərimizə sadiqliyimizin nümayiş etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz, müsəlman dövlətləri üçün nümunə ola biləcək dini-dünyəvi dövlətçilik modelinə malikdir. Dövlət-din münasibətlərini məzhəblərarası etimad mühitində quran Azərbaycan təmsil olunduğu hər bir beynəlxalq təşkilat çərçivəsində İslam dünyasının maraq və mənafelərini müdafiə edir. Heç bir dinlərarası qarşıdurmanın baş vermədiyi, tolerantlıq ruhunun hökm sürdüyü Azərbaycanda bütün digər dinlərin təmsilçiləri kilsə və sinaqoqlara gedib öz dini ayinlərini sərbəst icra edirlər, pravoslav və katolik kilsəsi fəaliyyət göstərir. Respublikamızın dinlərarası dialoq mərkəzi statusu daşıması, Azərbaycan xalqının tolerant keyfiyyətlərinin beynəlxalq səviyyədə aldığı yüksək qiymətin göstəricisidir.

İslama qarşı çirkin kampaniyaya rəvac verib müsəlmanlara qarşı haqsızlıq edənlər, aramıza nifaq salıb bizi bir-birimizə qarşı qoymaqla yenməyə çalışanlar hədəflərinə çatmamalıdırlar. Bu gün İslam aləminin siyasi birliyə, mənəvi həmrəyliyə, əqidə və məram tərəfdaşlığına ehtiyacı var. Bu baxımdan prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin Azərbaycanda ”İslam həmrəyliyi ili” elan edilməsi müsəlman ölkələri arasında həmrəyliyin güclənməsinə yönələn əməli addım, ölkəmizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir. Bu addım, İslam dünyasına əmin-amanlıq gətirilməsinə, sülhün təmin olunmasına verdiyimiz töhfə olacaq.

**Dünya qlobal siyasi-hərbi kataklizmlərin məngənəsində çalxalandığı bir dövrdə Azərbaycanın ”sabitlik adası” olaraq qalmağa davam etməsi, bölgənin lider dövlətinə, dinlər və sivilizasiyalararası dialoqların mərkəzinə çevrilməsi, ölkə başçısı səviyyəsində yürüdülən düşünülmüş və ar-dıcıl siyasətin nəticəsidir. Bu əmin-amanlığa hansı qanlı-qadalı günlərdən keçib gəldiyimizin fərqində olub yaşananları unutmamalı, hansısa xarici çevrənin bizi çirkin oyunlara alət etməsinə yol verməməliyik. Ölkə xaricində qurulan milli maraqlarımıza zidd oyunları həyata keçirmək cəhdlərinin qarşısı alınmalı, məkrli planlar güclü Azərbaycan qarşısında iflasa uğramalıdır!**

**İradə Ələsgərova,**
**Əməkdar mədəniyyət işçisi,**
**tarix üzrə fəlsəfə doktoru**